# Teatrların ad-repertuar uyğunluğu

## Dəyişikliklər tamaşaların janrına da təsir göstərir

**Azərbaycanda 27-ə yaxın teatr fəaliyyət göstərir. Müxtəlif bölgələr və paytaxtımızda yerləşən bu teatrlar bir-birindən maraqlı tamaşalarla tamaşaçıların görüşünə gəlirlər. Teatrlarda dövlət sifarişi əsasında müxtəlif tamaşalar hazırlanır.**



Teatrlarımız müxtəlif mövzularda öz təyinatlarına uyğun tamaşalar hazırlayır. Belə ki, Opera və Balet Teatrının bir, Gənc Tamaşaçılar Teatrının isə tamam başqa dəst-xətti var. Elə teatrların adı da tamaşaçılara çox söz deyir. Tamaşaçı repertuara nəzər yetirərək, istədiyi mövzuya uyğun tamaşanı izləmək imkanı əldə edir.

İllər ötdükcə teatrlarımızın adlarında müəyyən dəyişikliklər edilir. Məsələn, üç il bundan öncə Azərbaycan Dövlət Musiqili Teatrının adında dəyişiklik olundu. Teatrın adından "Komediya" sözü götürüldü.

Tarixə nəzər salsaq, görərik ki, Azərbaycanda milli musiqili komediya janrı XX əsrin əvvəllərində yaranıb. Opera kimi bu janrın da yaradıcısı dahi bəstəkar Üzeyir Hacıbəyov olub. Onun 1909-cu ildə yazdığı "Ər və arvad" musiqili komediyasının ilk tamaşası 24 may 1910-cu ildə Bakıda, Nikitin qardaşlarının sirk binasında göstərilib. Məhz bu tamaşa ilə də Azərbaycan Musiqili Komediya Teatrı təşəkkül tapmağa başlayıb. Sonrakı illərdə Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun", "Arşın mal alan" (1913) musiqili komediyaları oynanılıb.

İnqilabdan əvvəl Z.Hacıbəyovun "Əlli yaşında cavan", "Evliykən subay", M.Kazımovskinin "Molla Cəbi", "Vurhavur" musiqili komediyaları da tamaşaya qoyuldu. 1938-ci ilə qədər musiqili komediyalar Azərbaycan Opera və Balet Teatrında oynanılırdı. 1938-ci ildə müstəqil Musiqili Komediya Teatrı (Azərbaycan və rus bölmələri ilə) təşkil edildi və teatr 1938-ci ilin sentyabr ayından rəsmi olaraq Azərbaycan Dövlət Musiqili Komediya Teatrı statusu aldı.

1939-cu ildə teatrın Azərbaycan bölməsində "Beş manatlıq gəlin" (S.Rüstəmov), "Ər və arvad", "Evliykən subay" (Z.Hacıbəyov), sonralar isə "Toy kimindir?" (A.Məşədibəyov), "Qızıl gül" (S.Hacıbəyov), rus bölməsində isə "Mavi mazurka" (F.Leqar), "Arşın mal alan" (Ü.Hacıbəyov), "Sirk kraliçası" (İ.Kalman), "Malinovkada toy" (B.Aleksandrov) və s. tamaşalar səhnəyə qoyuldu.

Müxtəlif illərdə teatrda rejissorlar A.M.Şərifzadə, H.Əliyev, H.İsmayılov, S.Dadaşov, Ş.Bədəlbəyli, Əliheydər Ələkbərov və başqaları, aktyorlardan Bülbül, H.Hacıbabəyov, A.Terequlova, Ə.Qəmərlinski, E.Axundova, D.Şaraplı, C.Talışinskaya, H.Mironova, A.Cavadov, Ə.Anatollu, Ə.Qafarlı, K.Kərimov, M.Kələntərli, L.Abdullayev, İ.Hüseynov, B.Səfəroğlu, Alleqrov, dirijorlardan S.Hacıbəyov, S.Ələsgərov, K.Abbasov, rəssamlardan Ə.Abbasov, H.Mustafayev, F.Qusak və başqaları işləyiblər. Bundan sonra teatr daha geniş fəaliyyət imkanı qazandı və bir-birinin ardınca yeni-yeni tamaşalar hazırlandı.

Ötən əsrin 80-ci illərinin sonu-90-cı illərin əvvəllərində respublikada baş verən ictimai-siyasi hadisələr, Qarabağ müharibəsi burada çalışan sənət adamlarının yaradıcılığına mənfi təsir göstərdi. Uzun illik təmir işləri kollektivdə təəssüf ki, bir süstlük yaratdı. Lakin 1993-ci ildə ulu öndər Heydər Əliyevin göstərişi ilə binada təmir və bərpa işlərinə yenidən başlanıldı. Sənətə və sənət adamlarına xüsusi diqqət və qayğı göstərən Heydər Əliyev 1995-ci ildə təmir və bərpa işləri ilə yaxından tanış oldu, öz dəyərli tövsiyələrini verdi.

1998-ci il oktyabr ayının 10-da isə Heydər Əliyev böyük sənət məbədinin açılışında iştirak etdi. Bu, teatrın yenidən inkişaf etməsinə böyük təkan verdi. Kollektiv bir-birinin ardınca yeni-yeni tamaşalar hazırlayaraq repertuarı zənginləşdirməyə başladı. Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25 noyabr 2010-cu il tarixli Sərəncamı ilə Azərbaycan Dövlət Musiqili Komediya Teatrının binası 2011-2013-cü illərdə yenidən təmir olunub istifadəyə verildi.

Nazirlər Kabinetinin 2013-cü il 4 oktyabr tarixli 287 nömrəli qərarı ilə Azərbaycan Dövlət Musiqili Komediya Teatrı Azərbaycan Dövlət Musiqili Teatrı adlandırıldı.

10 mart 2014-cü ildə - Azərbaycanda peşəkar milli teatr sənətinin yaranmasının 141-ci ildönümündə Azərbaycan Dövlət Musiqili Teatrının təntənəli açılış mərasimi keçirildi. Bu əlamətdar hadisə münasibətilə "Musiqili teatr - bizik" tamaşası nümayiş olundu.

Bəs görəsən teatrın adı dəyişdikdən sonra repertuarında hansı dəyişikliklər baş verdi? Ad dəyişiklikləri repertuarın dəyişməsində rol oynadımı?

Musiqili Teatrın direktoru, tanınmış incəsənət xadimi Əliqismət Lalayev məsələ ilə bağlı mətbuata açıqlamasında Musiqili Teatrın tarixinin Azərbaycan Dövlət Musiqili Komediya Teatrı olaraq başladığını və müəyyən dövrdə teatrın bağlandığını, bəzi zamanlarda truppa şəklində fəaliyyət göstərib sonradan öz fəaliyyətini yenidən bərpa etdiyini diqqət mərkəzinə gətirmişdi: "Nə olur-olsun, teatrın tarixi 1910-cu ildən başlayır. Onu da xüsusilə qeyd edim ki, Musiqili Komediya Teatrının adının dəyişilməsi birbaşa dövrün, zamanın tələbidir. Və bu dəyişiklik teatrımızın qarşısında perspektivlər açılmasına geniş şərait yaratdı. Məsələn, indiyə qədər biz çərçivədən çıxa bilmir, sadəcə musiqili komediya janrında tamaşalar hazırlayırdıq - buna məhkumduq. Ciddi mövzulu tamaşalar oynamaq çətin olurdu və bu, tamaşaçılar tərəfindən qəbul olunmurdu. "Musiqili Komediya Teatrı niyə ciddi tamaşalar hazırlasın ki" kimi suallar ortaya çıxırdı. Artıq bu suallar yoxdur, çünki teatrımız artıq Musiqili Teatr olaraq fəaliyyətinə start verib. Artıq hər bir janrda tamaşalar hazırlaya bilərik. Artıq teatrmızın tamaşaçısı fərqli düşünəcək. Hər tamaşaçı istəyinə görə olan janrlarda tamaşalara baxmaq imkanı qazanacaq. Musiqili Teatr sadəcə məişət komediyaları, məzhəkələr, bir sözlə, əyləncə xarakteri daşıyan tamaşalar deyil, eyni zamanda düşündürücü əsərlərə də geniş yer verir".



**Teatrın mətbuat katibi Samir Sədaqətoğlu** isə bizimlə söhbətində bildirdi ki, "Musiqili Komediya" ifadəsi teatrın fəaliyyətində bir çərçivə, qəlib yaradırdı: "Bu dəyişiklik teatrın fəaliyyət imkanlarını daha da genişləndirmək üçün edildi. Və şübhəsiz ki, bu, eyni zamanda həm repertuarın şaxələnməsinə, həm də tamaşaçıların artmasına səbəb oldu".

Ötən ay Sumqayıt Dövlət Dram Teatrının adından da "Musiqili" sözü çıxarıldı. Azərbaycanın ilk peşəkar aktyorlarından olan Hüseyn Ərəblinskinin adını daşıdığı teatr təmirə dayandı. Belə qərar verildi ki, teatr fəaliyyətə başladıqdan sonra Hüseyn Ərəblinski sözü də ləğv edilsin. Bundan sonra teatrın adı sadəcə Sumqayıt Dövlət Dram Teatrı kimi qeyd olunacaq.

Mövzu ilə bağlı teatrın **baş rejissoru Firudin Məhərrəmov** deyir ki, 1969-cu ildən teatrın adı bir il Gənclər Teatrı kimi qeyd olunub. Çünki paytaxtdan kənarda yerləşən bu teatrda universitetdən çıxan tələbələr gəlir, burada obrazlar canlandırırdılar. Onlarla bərabər, xalq teatrı da Sumqayıt Teatrının nəzdində fəaliyyət göstərirdi: "Adımız bir müddət Gənclər Teatrı kimi qeyd olunsa da, qısa müddətdən sonra bu ada dəyişiklik olundu- Sumqayıt Dövlət Dram Teatrı kimi fəaliyyətimizə davam etdik. Çox keçmədi ki, çalışdığımız teatra Azərbaycanın ilk peşəkar aktyorlarından olan Hüseyn Ərəblinskinin adı verildi. 1991-ci ildə isə teatrımızın direktoru Ağalar İdrisov teatrın adına əlavə olaraq Musiqili Dram Teatrı adı verdi. Çünki o zamanlar teatrda özümüzə orkestr yığmışdıq. Beləliklə, 3-4 musiqili tamaşa hazırladıq. Bizim səhnədə orkestrin ifa etməsi üçün hər bir şərait var idi. Sumqayıt Teatrına "Musiqili" adı verildikdən sonra orada 3 tamaşa canlı ifa olunub. Ancaq buna baxmayaraq, teatrın maddi vəziyyəti yaxşı olmadığı üçün onlar musiqiçiləri saxlaya bilmədilər. Çünki musiqiçilərə az qonorar verilirdi, onlar bu qonorarla işləmək istəmədilər".

F.Məhərrəmov o günləri belə xatırlayır: "Biz çalışırdıq ki, heç olmasa fonoqram ilə tamaşalarımızı qoruyub saxlaya bilək. Uzun müddət bu şəkildə fəaliyyətimizi davam etdirdik. Mədəniyyət və Turizm Nazirliyi gördü ki, fonoqram ilə tamaşalar o qədər də keyfiyyətli alınmır. Ona görə də teatrımızın adından "Musiqili" sözü götürüldü, köhnə adı yenidən bərpa olundu. Sumqayıt Teatrında nümayiş olunan tamaşaların hamısında musiqiyə yer ayrılıb. Misal üçün, Mirzə Fətəli Axundovun "Hacı Qara" tamaşasını səhnələşdirmişəm. Orada 5 mahnı yazdırmışıq. Aktyorlar canlı şəkildə həmin mahnıları ifa edirlər. Biri var canlı musiqi, necə ki Musiqili Teatrda canlı orkestr ifa edir, aktyorlar oxuyur, bir də var ki musiqini yazdırırsan, aktyor onu fonoqram şəklində ifa edir. Bu da musiqili tamaşadır. Musiqili Teatrın özündə belə, bəzən aktyorun səsini qorumaq üçün fonoqramdan istifadə edirlər. Əgər tamaşaçı bizdən onu tələb edirsə, biz yenə musiqiyə yer ayırırıq".

Sumqayıt Teatrı yarananda onun musiqili tamaşaları olmayıb. 1969-cu ildə Cənnət Səlimova burada tamaşa hazırlayıb. Bu tamaşada musiqiyə geniş yer verilib.

Teatrın baş rejissoru "Musiqili" sözünün teatrın adından kənarlaşdırılmasından da danışdı: "Musiqili teatr odur ki, orada orkestr olmalıdır. Musiqiçiləri təmin etmək, saxlamaq çətindir. Eyni zamanda, teatrın akustikası da buna imkan verməlidir. Teatrı bu ad da qane edir. Ancaq bununla bərabər biz musiqili tamaşalar ifa edirik. O ki qaldı Hüseyn Ərəblinski adının götürülməsinə, bu barədə bizə heç bir məlumat vermədilər. Əvvəllər hər teatra məşhur aktyorların və teatr cameəsində çalışan sənətkarların adları qoyulurdu. Daha sonra onların adları bir-bir silinməyə başladı".

**Xəyalə Rəis**